

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 170 (23.081)

11 sentyabr 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yığıncağı keçirilmişdir

*Sentyabrın 8-də Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yığıncağı keçirilmişdir.*

Yığıncağın gündəliyinə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının fəaliyyəti və görülən işlərin hesabatı, eləcə də federasiyanın yeni sədrinin seçilməsi verilmişdir.

Gündəlik qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək demişdir ki, ölkəmizdə idman sahəsində həyata keçirilən tədbirlər muxtar respublikamızı da əhatə etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilmişdir. Muxtar respublikada müasir idman məktəbləri və idman qurğuları tikilmiş, ayrı-ayrı idman növləri üzrə 12 federasiya yaradılmış, idmanla məşğul olanların sayı artmışdır. İntellektual idman növlərindən olan şahmatın inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin şahmata olan diqqəti nəticəsində 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası yaradılmışdır.





Naxçıvanda şahmat idman növünün inkişafı üçün yaradılan şəraitin nəticəsidir ki, artıq bu gün federasiyasının tərkibində 8 şahmat məktəbində 177 müəllim və 291 qrupda 3000-dək şahmatçı idmanın bu növü ilə məşğul olur. 2018-ci ilin ötən dövründə Şahmat Federasiyasının idmançıları ölkə çempionatlarında 8, beynəlxalq yarışlarda isə 12 medal qazanmışlar.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev hesabat məruzəsi ilə çıxış edərək qeyd etmişdir ki, Ali Məclis Sədrinin qayğısı ilə şahmatın inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılır. Lakin yaradılan şəraitdən səmərəli istifadə olunmur. Bir sıra nöqsanlara yol verilir. Beynəlxalq və ölkədaxili yarışlarda muxtar respublikanın bütün rayonlarının iştirakı arzuolunan səviyyədə deyil. Artıq xeyli vaxtdır ki, açıq birinciliklər keçirilmir. Belə yarışlar keçirilməyəndə istedadlı gənc şahmatçıları üzə çıxarmaq mümkün olmur. Mərkəzin qabaqcıl şahmatçıları ilə məşğul olmaq üçün güclü müəllimə ehtiyac var.

Sonra gənclər və idman naziri Azad Cabbarov Seymur Talıbovun Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasına sədrliyinə namizədliyini irəli sürmüşdür.

Təklif yekdilliklə qəbul olunmuş və Seymur Talıbov Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri seçilmişdir.

Muxtar respublikanın gənclər və idman naziri yığıncaq iştirakçıları adından Seymur Talıbovu Şahmat Federasiyasının sədri seçilməsi münasibətilə təbrik etmişdir.

Məşqçi-müəllimlər Hüseyn Əliyev və Əli Hüseynzadə də yeni seçilmiş federasiya sədrini təbrik etmişlər. Vurğulamışlar ki, idmançılara daha da yaxın olan, onlara qayğı ilə yanaşan Seymur Talıbovun federasiyaya sədr seçilməsi muxtar respublikada şahmatın inkişafına töhfə verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov göstərilən etimada görə federasiya üzvlərinə təşəkkürünü bildirmiş, Ali Məclis Sədrinin idmanın, o cümlədən şahmatın inkişafına göstərdiyi diqqət və qayğıya öz əməli işi ilə cavab verəcəyini vurğulamışdır.

**"Şərq qapısı"**

## Təhsil işçilərinin ənənəvi konfransı olub



*Sentyabrın 10-da "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib. Konfransda muxtar respublikanın bütün təhsil müəssisələrinin rəhbərləri, Təhsil Nazirliyinin əməkdaşları, qabaqcıl müəllimlər iştirak ediblər.*

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov açaraq geniş məruzə edib, təhsilə göstərilən dövlət qayğısından və qarşıda duran vəzifələrdən danışıb. Qeyd olunub ki, muxtar respublikamızda təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir. Ötən dövr ərzində muxtar respublikamızda 200-dən çox təhsil müəssisəsi üçün yeni binalar tikilib və ya mövcud binalar əsaslı şəkildə yenidən qurulub. Əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də tikinti-quruculuq işlərinin önündə təhsil quruculuğu dayanıb. Belə ki, 2018-ci ilin birinci yarımili ərzində 904 şagird yerlik 3 ümumtəhsil məktəbi və Ordubad Rayon Təhsil Şöbəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Hazırda da bu sahədə işlər davam etdirilir.

Təhsilə dövlət qayğısı təkcə məktəb tikintisi ilə yekunlaşmamış, muxtar respublikada pedaqoji kadr hazırlığındakı təkmilləşmələr, fənn kurikulumları və təhsil standartlarının tətbiqi, informasiya-kommunikasiya texnologiyalarına təlim prosesində geniş yer ayrılması, distant təhsilin reallaşdırılması təhsil sahəsində uğurların qazanılmasına şərait yaradıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili, elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin yaradılması, elmi dərəcəli müəllimlər tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslərin keçilməsi şagirdlərin biliklərinin artırılmasında, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasında, qabaqcıl təcrübənin öyrənilməsi və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılmasında mühüm rol oynayır.

Nazir qeyd edib ki, bu il ali və orta ixtisas təhsili müəssisələrinə 2627 məzun sənəd verib, onlardan 2023-ü, yaxud 77 faizi tələbə adını qazanıb.

2017-2018-ci tədris ilində məzunlardan 13-ü "Qızıl", 11-i "Gümüş" medallara, 151-i isə fərqlənmə attestatına layiq görülüb.

Rəhman Məmmədov ümumtəhsil müəssisələrinin fəaliyyətindəki nöqsanlardan da danışaraq bildirib ki, tədris prosesindən səmərəli istifadə edən, şagirdlərin bilik səviyyəsinin daim yüksəldilməsinə çalışan pedaqoji kollektivlərlə yanaşı, tədrisin keyfiyyətinə lazımi şəkildə nəzarət etməyən məktəblər də vardır.

"Müəllimlərin informasiya-kommunikasiya texnologiyalarından, xüsusən də elektron lövhələrdən istifadəsi də tələb olunan səviyyədə deyil. Öz üzərində işləməyən, dərs üçün əlavə materiallar axtarmayan, ümumiyyətlə, dərsə hazırlıqsız gələn müəllimlər hələ də mövcuddur. Təhsil müəssisələrində ixtisaslı fənn müəllimləri olduğu halda dərslərin qeyri-ixtisas fənn müəllimləri tərəfindən tədris edilməsi hallarına da yol verilib ki, bu da tədrisin səviyyəsini aşağı salıb", – deyən nazir bildirib ki, 2018-2019-cu tədris ili təhsildə ciddi dönüş ili olmalı, mövcud nöqsanlar qısa müddətdə aradan qaldırılmalıdır. Dərs bölgüsünün aparılması zamanı varislik prinsipi gözlənilməli, tədris ili ərzində məktəb rəhbərləri tərəfindən tələb olunan sayda dərs dinləmələri aparılmalı, açıq və nümunəvi dərslər, müzakirələr təşkil edilməli, müəllimlərə metodik köməklik göstərilməli, sinif komplektləri mövcud qanunvericiliyə uyğun olaraq formalaşdırılmalıdır. Dərslərdə əyani vəsaitlərdən, elektron lövhə, kompüter və laboratoriyaların imkanlarından səmərəli istifadə olunmalıdır. Gənc müəllimlərlə aparılan işin keyfiyyəti artırılmalı, metodik kabinetlərin fəaliyyəti gücləndirilməli, şagirdlərin məktəbəhazırlıq qruplarına və I siniflərə qəbulu zamanı mövcud qaydalara əməl edilməli, kargüzarlıq təlimata uyğun aparılmalıdır.

Yeni tədris ilində "Ümumtəhsil müəssisələrinin informasiya sistemi" və "Şagird-məzun sistemi"ndəki məlumatlar vaxtında və düzgün işlənməli, təhsil müəssisələrinə verilmiş bədii ədəbiyyatlardan istifadə, şagirdlər arasında oxunması zəruri olan kitabların mütaliə və müzakirələri təşkil olunmalıdır. Bununla yanaşı, məktəbdənkənar müəssisələrdə əmək intizamının tələblərinə və müəssisədaxili nizam-intizam qaydalarına ciddi əməl edilməli, dərnəklərə uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların cəlbi diqqətdə saxlanılmalıdır.

Bütün təhsil müəssisələrində inventarizasiyanın aparılmasına, bina və avadanlıqların, o cümlədən yaradılmış yaşıllıqların qorunmasına nəzarət artırılmalıdır.

Məruzə ətrafında müzakirələrdə Şərur və Ordubad Rayon Təhsil şöbələrinin müdirləri Tuncay Cəfərov və Samir Zeynalovun, Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədovun, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun, Şərur Texniki Peşə və Sürücülük Məktəbinin direktoru Vəfadar Ələkbərovun və Turizm-Diyarşünaslıq Mərkəzinin direktoru Murad Babayevin çıxışları dinlənilib.

Sonda konfransın qətnaməsi qəbul edilib.

Konfransa yekun vuran nazir cəmiyyətin tərəqqisində təhsilin mühüm rolunu bir daha vurğulayıb və yeni dərs ilində bütün təhsil işçilərinə və şagirdlərə uğurlar arzulayıb.

## Nümayəndə heyəti Ukrayna Respublikasının İrpen şəhərinə işgüzar səfər edib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbə müdiri Abdulla Əsgərov və Kəngərli rayonunun Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin direktoru Sarvan Məmmədov 3-5 sentyabrda Ukraynanın İrpen şəhərinə səfər edərək burada fəaliyyət göstərən Akademik Zərifə Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbində olublar.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti əvvəlcə İrpen şəhərindəki Akademik Zərifə xanım Əliyeva adına parka gələrək görkəmli alimin buradakı abidəsi önünə tər çiçəklər düzüblər. Akademik Zərifə Əliyeva adına 12 nömrəli məktəbin direktoru Valentina Antonenko görkəmli alimin həyat və fəaliyyəti haqqında tədbir iştrakçılarına geniş məlumat verib.

Nümayəndə heyətinin rəhbəri Abdulla Əsgərov Akademik Zərifə xanım Əliyevanın adını daşıyan məktəbdə keçirilən Bilik Günü tədbirindəki çıxışında şagird və müəllimləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib.

Ümumtəhsil məktəbində təhsil prosesi ilə tanış olan nümayəndə heyəti Akademik Zərifə Əliyeva adına Muzeydə də olub, onlara burada nümayiş etdirilən eksponatlar barədə məlumat verilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti muzeyə kitablar hədiyyə edib.

Qeyd edək ki, bu ilin aprel ayında İrpen şəhərində yerləşən Akademik Zərifə Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin direktoru Valentina Antonenkonun rəhbərlik etdiyi nümayəndə heyəti də Naxçıvan Muxtar Respublikasında səfərdə olub, görkəmli akademikin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən tədbirlərdə iştirak edib. Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin növbəti səfəri də həmin məktəbin dəvəti əsasında həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## “Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı” mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları muxtar respublika ərazisindəki türk-islam mədəniyyəti abidələri ilə yaxından tanış olublar





*Xəbər verdiyimiz kimi, sentyabrın 7-də “Naxçıvan” Universitetində “Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı” mövzusunda beynəlxalq konfransın plenar iclası keçirilib, tədbir bölmə iclasları ilə davam edib. Sentyabrın 8-də konfrans AMEA Naxçıvan Bölməsində yekun iclası ilə öz işini başa vurub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq keçirilən konfransın bölmə iclaslarının fəaliyyəti ilə bağlı məlumat diqqətə çatdırılıb, konfransın əhəmiyyətindən bəhs edilib. Sonra bölmə rəhbərlərinin hesabatları dinlənilib.*

Konfrans iştirakçıları muxtar respublika ərazisindəki türk-islam mədəniyyəti abidələri ilə də yaxından tanış olublar. Əvvəlcə qonaqlar “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə gəliblər. Xan sarayında onlara məlumat verilib ki, bu iqamətgah Ehsan xanın atası Kalbalı xan Kəngərli tərəfindən 1760-cı illərdə tikdirilib. Şərq memarlığı üslubunda inşa edilmiş bu saray üç mərtəbədən ibarətdir və hazırda muzey kimi fəaliyyət göstərir.

Möminə xatın türbəsi ilə tanışlıqdan sonra qonaqlar Əcəmi seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələrə maraqla baxıblar. Onlar muxtar respublika ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi barədə ətraflı məlumat əldə ediblər.

Sonra konfrans iştirakçıları “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Milli geyimlər” festivalında iştirak ediblər. Xanlıqlar dövrünün saray geyimlərindən ibarət dəfilənin nümayişi qonaqlar tərəfindən maraqla izlənilib.

Qarabağlar Türbə Kompleksinə gələn konfrans iştirakçılarına məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan kompleks elmi və tarixi əsaslarla bərpa edilib. Tarixi abidə qoşa minarə və onları birləşdirən baştağ, xanəgah və türbədən ibarətdir. Kompleksə daxil olan tikililər zaman keçdikcə dağıntıya məruz qalmışdı. Türbənin memarlıq xüsusiyyətləri onun Naxçıvan memarlıq məktəbinin nümunəsi olduğunu təsdiq edir. Bərpa zamanı abidənin tarixi görkəmi qorunub saxlanılıb.

Beynəlxalq konfransın iştirakçıları kompleksin xanəgah hissəsində nümayiş etdirilən eksponatlarla da tanış olublar. Burada xalqımızın həyat tərzini əks etdirən qədim məişət əşyaları, ərazidə aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri sərgilənir.

Daha sonra qonaqlar Babək rayonunun Nehrəm kənd məscidinə gəliblər. 2016-cı ilin noyabr ayında istifadəyə verilən, 830 kvadratmetrlik məscid binası haqqında onlara ətraflı məlumat verilib.

“Şərq qapısı” qəzetinə müsahibə verən konfrans iştirakçıları Naxçıvanın türk-islam mədəniyyəti abidələri ilə tanışlığın onlarda xoş təəssüratlar yaratdığını xüsusi vurğulayıblar.

***Oktay Belli – İstanbul Universitetinin müəllimi, professor:***



– Qədim torpaqla yaxından tanışlığım 1998-ci ilə təsadüf edir. Həmin vaxtdan həmkarlarım ilə birlikdə burada tədqiqatlar aparırıq. Öyrəndiklərimizi dünyaya bəyan etmək, qədim diyarı tanıtmaq məqsədilə bu günədək türk və ingilis dillərində 2 dəyərli kitab ərsəyə gətirmişik.

Qeyd etmək istəyirəm ki, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı kimi şərəfli missiyanı daşıması heç də təsadüfi deyil. Bu ərazidəki hər abidə tarixin müəyyən mərhələsindən söhbət açır. Açıq Səma Altında Muzeydə nümayiş olunan maddi-mədəniyyət nümunələri, sadəcə, daş parçası deyil, onlar türk tarixinin aynası, milli kimliyimizin möhürüdür. Qəbirüstü məzar daşları, qoç, qoyun heykəlləri, qədimdə məişətdə istifadə olunan əmək alətləri bu oğuz yurdunun keçmişinin canlı şahidləridir. Həmin abidələrin qorunub-saxlanılması, nümayiş etdirilməsi həm də Türk dünyasının tarixi keçmişinə göstərilən böyük diqqət və qayğıdır. Ümumiyyətlə, Naxçıvana hər dəfə yolun düşdükdə burada tarixi miraslara göstərilən diqqəti gördükcə, həmçinin şanlı keçmişə malik qədim diyarın müasir çalarları ilə tanış olduqca insanda ruh yüksəkliyi, yaşamaq, yaratmaq istəyi yaranır.

Naxçıvanda beynəlxalq tədbirlərin, festivalların keçirilməsi burada gedən böyük inkişaf və tərəqqidən xəbər verir. “Milli geyimlər” festivalında iştirak etmək hər bir konfrans iştirakçısı kimi mənim də ürəyimcə oldu. Bu festival xalqın, millətin öz tarixi soykökünə bağlı olduğunu nümayiş etdirirdi. Belə əhəmiyyətli tədbirlər tarixlə bu gün arasında sağlam körpü yaratmaqla gənc nəsildə yurda bağlılıq, vətənsevərlik hissləri formalaşdırır. Çox yaxşı haldır ki, gənclər də bu məsələdə həssasdırlar.

Sonda onu da bildirim ki, Naxçıvanda tarixi keçmişin, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunaraq yaşadılması, burada müasir şəraitin yaradılması aparılan uğurlu siyasətin bəhrəsidir. 20 il öncəki Naxçıvanla bugünkünü müqayisə edəndə, sözün həqiqi mənasında, heyrətimi gizlədə bilmirəm. Əminliklə demək olar ki, xalqına, millətinə, torpağına bağlı olan, insanların firavanlığını düşünən rəhbərin yaratdığı Naxçıvan adlı möhtəşəm əsər illər keçdikcə daha böyük zirvələr fəth edəcək.

***Bəhram Acarlı – Təbriz Sənət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru:*** – Muxtar respublika paytaxtının



2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi çox yerində verilmiş bir qərardır. Çünki Naxçıvan tək Qafqazda deyil, bütün İslam dünyasında nadir şəhərlərdən biri, tarixi-mədəni abidələrlə zəngin məkandır. Bu yurd yeri dünyaya çox istedadlı memarlar və sənətkarlar bəxş edib. Vaxtilə Memar Əcəmi Naxçıvaninin ərsəyə gətirdiyi tikililər sonralar Türkiyə və İran memarlıq üslubuna da öz təsirini göstərib.

Mənim diqqətimi daha çox Naxçıvanda tarixi və mədəni abidələrin xüsusi qayğı ilə qorunması, bərpası cəlb etdi. Burada olarkən Naxçıvan sakinlərinin də tarixi abidələrə xüsusi diqqət və həssaslıqla yanaşdığının şahidi oldum. Ümidvaram ki, gələcəkdə də bu ənənə qorunub saxlanılacaq, beşminillik şəhər mədəniyyəti olan qədim Naxçıvan diyarı daim inkişaf edəcək və çiçəklənəcək.

***Hüseyn Yurttaş – Ərzurum Universitetinin Sənətşünaslıq kafedrasının müdiri, professor:*** – Naxçıvan İslam dünyasının



ən önəmli şəhərlərindən biridir. Eyni zamanda uzun illər Türkiyə və İran arasında çox vacib bir körpü rolunu oynayıb. Bu şəhər türk-islam mədəniyyəti abidələri ilə zəngindir.

Anadoluda memarlığın inkişaf etməsində Naxçıvandakı memarlıq abidələrinin əvəzsiz yeri vardır. Bunlar arasında Əcəmi Naxçıvaninin yaratdığı əsərlər öz monumentallığı ilə seçilir. Qədim diyardakı qoşa minarəli tac qapılar, qəbirüstü abidələr sonralar Anadoluda tikilən memarlıq nümunələrində də özünü göstərir. Bu səbəbdən də Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi bütün İslam və Türk dünyası üçün çox əhəmiyyətli hadisədir.

Qeyd etmək istərdim ki, ikinci dəfədir, Naxçıvana gəlirəm. Hər gəlişimdə də buraya heyranlığım daha da artır. Düşünürəm ki, türk-islam mədəniyyəti ilə maraqlanan hər kəs Naxçıvana mütləq gəlməlidir. Bu mövzuda konfransın keçirilməsi də Naxçıvanın bütün dünyaya tanıdılması baxımından çox əhəmiyyətlidir.

***Cəfər Qiyasi – Azərbaycan Memarlıq və İnşaat Universitetinin Abidələrin Bərpası Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü:*** – Naxçıvanın



İslam Mədəniyyətinin Paytaxtı olması təsadüfi deyil. Naxçıvan tarixboyu İslam mədəniyyətinin inkişafında çox böyük, önəmli rol oynayıb. Naxçıvanlı memarlar təkcə Azərbaycan və Naxçıvanın deyil, bütövlükdə, İslam memarlığına dair önəmli işlər görüblər. Muxtar respublika ərazisində zəngin və müxtəliftipli memarlıq abidələri vardır. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, Naxçıvanqala, Nuh türbəsi, Qarabağlar, Yusif Küseyir oğlu, Möminə xatın türbələri, Əlincəqala və digər abidələr həm maddi-mənəvi, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır. Bu abidələri Türkiyə, İran, Orta Asiyanın memarlıq abidələri ilə müqayisə etdikdə görürük ki, bir çoxu Naxçıvan memarlığından bəhrələnib. Naxçıvan memarlıq məktəbinin formalaşdığı qədim diyardır. Qülləvari türbələr içərisində şah əsər Möminə xatın türbəsi sayılır. Eləcə də Qarabağlar türbəsi silindrik gövdəli türbələr içərisində bir şah əsərdir. Bunu bir sıra ölkələrin memarları da etiraf edirlər.

Naxçıvanlı memarlar həm də böyük konstruktiv mühəndis olublar. Belə ki, İslam dünyası memarlığında qoşa minarəli baş tağlar ilk dəfə Naxçıvanda geniş yayılıb. Belə türbələr Naxçıvanda yaradıldıqdan 100 il sonra Türkiyədə, 50 il sonra isə Təbrizdə meydana gəlib. Bütün bunlar onu deməyə əsas verir ki, Naxçıvan, həqiqətən də, İslam Mədəniyyətinin Paytaxtı olmağa layiqdir.

Ümid edirik ki, tarixən İslam sivilizasiyasının əsas mərkəzlərindən biri sayılan Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması bu qədim diyarı ümumi İslam dünyasına daha da yaxınlaşdırır, qlobal arenada ictimai mövqeyinin möhkəmləndirilməsinə öz töhfəsini verir.

***Abbas Seyidov – Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, tarix üzrə elmlər doktoru:***



– Böyük sivilizasiya məkanı olan Naxçıvan Ön Asiya və Cənubi Qafqaz arasında qırılmaz körpü rolunu oynayır. Burada İslam mədəniyyətinin, mənəviyyatının, müsəlman əxlaq və qaydalarının yüksək şəkildə qorunaraq yaşadılması böyük ali dəyərdir.

Onu da qeyd edim ki, 4-5 il bundan öncə Qarabağlar türbəsinə yaxın yerdə arxeoloji qazıntı işlərinə başladıq. Həmin tədqiqat zamanı ərazidən Son Tunc, Erkən Dəmir dövrlərinə, təxminən, 3 min 200 il bundan əvvələ aid çoxlu maddi-mədəniyyət nümunələri tapıldı və məlum oldu ki, bu yerin təbii-coğrafi şəraiti insanların ən azı 3500 il bundan əvvəl burada məskən salmasına imkan verib. Bu onu göstərir ki, Naxçıvan İslamdan öncə də qədim mədəniyyət mərkəzlərindən biri olub. Bu diyar İslam dünyasının tərkib hissəsi olduqdan sonra burada mövcud olan böyük mədəniyyət İslam mədəniyyətinin zənginləşdirilməsinə öz töhfəsini verib. Bu gün də Naxçıvan zəngin maddi-mənəvi dəyərləri ilə İslam dünyasında özünəməxsus yer tutur.

Fəxr edirəm ki, dünyaya göz açdığım bu məkanda təşkil olunan belə yüksək tədbirin mən də iştirakçısı oldum. Naxçıvanda olduğumuz müddət ərzində buradakı İslam mədəniyyətinə məxsus abidələri ziyarət etdik, islami dəyərlərə verilən yüksək qiyməti bir daha gördük. Bir vaxtlar baxımsızlıq üzündən uçub-dağılan tikililər indi öz ecazkarlığı ilə insanı valeh edir.

Ümumiyyətlə, Nuhun ayaq basdığı Naxçıvan torpağının hər qarışında böyük tarix, zəngin mədəni irs yatır. Bu qiymətli xəzinəni qoruyub, gələcək nəsillərə ərməğan edənlərə isə şübhəsiz, tarix özü ən yüksək qiyməti verəcəkdir.

**✍ Nail ƏSGƏROV**
**Tural AĞAYEV**
**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Təlim-məşq uçuşları uğurla davam etdirilir

*Əlahiddə Ümumqoşun Ordunun aviasiya bölmələrinin tərkibində olan hava hücumu vasitələrinin sayı günü-gündən artır, maddi-texniki bazası müasir tələblərə uyğun inkişaf etdirilir. Bölmələrin təlim-məşq uçuşlarında hədəflərin məhv edilməsi, hücum edən qoşunların havadan himayəsi, dərinliyə taktiki və hava desantının atılması tapşırıqları uğurla yerinə yetirilir.*



Uçuşlar zamanı SU-25 hücum təyyarələri və Mİ-35 atəş-dəstək helikopterləri ilə yer hədəflərinə müxtəlif hücumlar həyata keçirilir, hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf edilməsi üçün ən aşağı hündürlükdə mürəkkəb pilotaj manevrlər yerinə yetirilir. Gənc pilotların Mİ-17 nəqliyyat-döyüş helikopterləri ilə yüksək dağlıq ərazidə məhdud ölçülü meydançaya enmə vərdişləri təkmilləşdirilir.

Əsasən, şəxsi heyətin peşəkarlıq səviyyəsinin, bilik və bacarığının daha da təkmilləşdirilməsi, manevr qabiliyyətinin artırılması məqsədilə aparılan uçuşlarda böyük təcrübə qazanmış hərbi qulluqçulardan Afiyəddin Məmmədov, Nəcəf Nəcəfzadə, Elçin Məmmədov, Cavad Abdullayev, Kazım Fərzəliyev, Orman Musayev, Rəşad Fərzəliyev, Etibar Qəşimov, Ayyəm Zeynalov və digərləri aviasiya texnikalarının saz vəziyyətdə saxlanılması, uğurlu uçuşlar üçün əllərindən gələni əsirgəmirlər.

Təyinatına uyğun olaraq, aviasiya bölmələrinin digər bölmələrlə qarşılıqlı fəaliyyətinin uzlaşması məqsədilə keçirilən məşğələlərdə birgə fəaliyyət təkmilləşdirilir, şəxsi heyətin helikopterlərə minməsi, helikopterlərdən müxtəlif üsullarla enməsi, uçuş zamanı yerüstü hədəflərə müxtəlif atəş vasitələrindən atəşaçma bacarıqları məşq etdirilir. Bunun nəticəsidir ki, döyüş hazırlığı planına əsasən keçirilən təlimlərdə şəxsi heyətin praktik vərdişlərinin təkmilləşdirilməsində, bölmələrin uzlaşmış fəaliyyətində və praktik idarə edilməsində müsbət nəticələrə nail olunub.

Əldə edilən nailiyyətlər onu deməyə əsas verir ki, Əlahiddə Ümumqoşun Ordunun digər birləşmə, hissə və bölmələri kimi aviasiya bölmələri də ən çətin döyüş tapşırıqlarını uğurla və qətiyyətlə yerinə yetirməyə hazırdır.

**Nəriman NƏCƏFOV**

# Naxçıvanda "Milli geyimlər" festivalı keçirilmişdir





*Sentyabrın 8-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Milli geyimlər" festivalı keçirilmişdir.*

Tədbirin aparıcıları qeyd etmişlər ki, geyimlər hər bir xalqın maddi-mədəniyyətini və özünəməxsusluğunu əks etdirir. Dekorativ-tətbiqi sənətin mühüm bir qolunu təşkil edən milli geyimlərin tikilməsi, toxunması ənənəsi ilə əcdadlarımız hələ Tunc Dövründə məşğul olmağa başlamış, əyirmə, hörmə və arxaik şəkildə tikmə işləri, nadir sənət nümunələri yaratmışlar. Onuncu əsr ərəb müəlliflərinin məlumatlarına görə, Azərbaycan sənətkarları satış üçün yun, pambıq, ipək parça və paltarlar hazırlayırdılar. Bu parça və geyim növləri içərisində Naxçıvanda hazırlanmış çuxalar Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda şöhrət qazanmışdır. Məşhur türk səyyahı Övliya Çələbi Naxçıvanda yüksəkkeyfiyyətli basma parçaların istehsal olunduğunu, satış üçün uzaq və yaxın xarici ölkələrə göndərildiyini qeyd etmişdi.



Bildirilmişdir ki, Naxçıvanda çox istifadə edilən geyimlərdən arxalıq, çəpkən, ləbbadə, quşqar, çuxa, kürk, yapıncı, baş geyimlərindən papaq, kələğayı, təskülah, börk və digərləri keyfiyyəti, üstünün naxışları, rənglərinin təbiiliyi ilə fərqlənmiş, insanların daimi tələbatına çevrilmişdir. Son illər muxtar respublikamızda milli geyimlərimizin qorunub yaşadılması və təbliği istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı xalq yaradıcılığının tərkib hissəsi olan milli geyimlərimizin də araşdırılıb üzə çıxarılmasına və təbliğinə şərait yaratmışdır. Muxtar respublika rəhbərinin himayəsi ilə folklor ansambl və qrupları milli geyimlərlə təmin edilmiş, "Naxçıvan milli geyimləri" albom-kataloqu, "Naxçıvan tikmələri" kitabı nəşr olunmuşdur. Bu gün milli geyim nümunələri muxtar respublikanın ayrı-ayrı muzeylərində mühafizə olunur, teatr tamaşalarında, mədəni-kütləvi tədbirlərdə, teleradio, qəzet və jurnallarda, internet saytlarında təbliğ edilir və yaşadılır.

Festivalda xalqımızın müxtəlif dövrlərə aid milli geyimlərinin sərgisi təşkil edilmişdir. Buradakı sərgi-satışda yer alan, sənətkarlar tərəfindən hazırlanmış əl işləri böyük maraqla qarşılanmışdır. "Milli geyimlər Naxçıvan teatrının səhnəsində" adlı sərgidə müxtəlif teatr tamaşalarında istifadə edilmiş milli geyimlərimiz, "Milli geyimlər rəssamların gözü ilə" adlı sərgidə isə muzeylərdə olan milli geyimlərin təsvir olunduğu rəsm əsərləri, fotoşəkillər və müasir Naxçıvan rəssamlarının milli geyimlərlə bağlı rəsm əsərləri sərgilənmişdir. Həmçinin "Milli geyimlərimiz uşaqların gözü ilə" adlı sərgidə muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdləri milli geyimlərlə bağlı rəsm əsərləri və etüd çəkilişini nümayiş etdirməklə yanaşı, məktəbdənkənar müəssisələrin dərnək üzvlərinin rəsmləri və əl işləri sərgilənmişdir.



Naxçıvan Dövlət Film Fondunun "Milli geyimlər filmlərdə" adlı sərgisində "Arşın mal alan", "Qəm pəncərəsi", "Dərviş Məstəli şah", "Səhər", "Nizami", "Babək", "O dünyadan salam" və digər bədii filmlərin çəkilişlərində istifadə edilən 14 milli geyim yer almışdır. Bundan başqa, "Nəsimi", "Babək", "Qara gölün cəngavərləri" və digər filmlərdə istifadə olunan 9 dəbilqə, 25-ə yaxın məişət əşyası, "Arşın mal alan", "Ögey ana", "Əzablı yollarda" filmlərindən 5 papaq, 2 kəmər, "Görüş" filminə aid 1 araqçın, "Hökmdarın taleyi", "Qərib cinlər diyarında", "O olmasın, bu olsun" və digər filmlərdən xalqımıza məxsus geyim növlərinin əks olunduğu 26 fotoşəkil, 3 xalça, 2 xurcun festivalda nümayiş etdirilmişdir.

Festivalın ən maraqlı guşələrindən biri isə xalqımıza məxsus adət-ənənələri və geyimləri özündə əks etdirən kompozisiyaların nümayişi idi. Naxçıvan Dövlət Rəsm Qalereyası festivalda XII-XX əsrlərə aid milli geyimlərin əks olunduğu 40 eskiz, 14 rəsmlə çıxış etmişdir. Bunlar içərisində XIX əsrə aid "Naxçıvan qadın geyimi", "Kişi papağı", "Uşaq qış geyimi", XVII əsrə aid "Kəndli qadın", XVIII əsrə aid "Sara xatun", XX əsrin əvvəllərinə aid "Naxçıvan toyu" adlı kağız üzərində sulu boya ilə çəkilmiş, milli geyimlərin əks olunduğu rəsmlər diqqəti daha çox cəlb etmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyi tərəfindən festivala 80-ə yaxın milli geyim çıxarılmışdır. Bunlar içərisində ayaqqabılar, araqçınlar, kələğayılar, qızıl və gümüşdən hazırlanan zinət əşyaları, kəmərlər, görkəmli rəssam Şamil Qazıyevin çəkdiyi, müxtəlif dövrlərə aid milli geyimlərin əks olunduğu 15 rəsm əsəri, məfrəş, xurcun, yun darağı, sini, samovar, məcmeyi və digər məişət əşyaları sərgilənmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Texniki Yaradıcılıq, Uşaq-Gənclər Yaradıcılıq, Ekoloji Tərbiyə, Turizm-Diyarşünaslıq mərkəzləri festivalda əl işləri, 40 tikmə və 5 əllə çəkilmiş rəsm əsərləri, yağlı və sulu boya ilə çəkilmiş rəsmlər, XIX əsrə aid milli ornametlərlə bəzədilmiş qadın və kişi üst və baş geyimləri, uşaq geyimləri, bəzək, ev-məişət əşyaları olmaqla, ümumilikdə, 500-ə yaxın milli geyimlərin əks olunduğu əl işləri nümayiş etdirmişlər. Həmçinin burada iştirak edən 15 uşağın parça və kağız üzərində bədii tikmə və rəsmlərlə milli geyimlərimizi nümayiş etdirdiyi əl işləri maraqla qarşılanmışdır.



"Mömünə xatın" milli moda evi isə festivalda 30-dan artıq milli geyimlə çıxış edirdi. Moda evi xanlıqlar dövrünün saray geyimləri, əl işi gəlinciklər, araqçınlarla yanaşı, Azərbaycan Respublikasının müstəqilliyini tanıyan, ölkəmizdə səfirlik və konsulluqları olan 66 dövlətin milli geyimlərini kuklalar üzərində nümayiş etdirirdi. Moda evinin rəhbəri Sevinc Abbasova bildirdi ki, Naxçıvanda tarixən istifadə olunan geyimlər arasında saray geyimləri öz fərqliliyi, özünəməxsusluğu, rəngarəngliyi ilə seçilib. Buna görə də festivalda bu geyimlərin nümayiş etdirilməsinə qərar verdik. Eyni zamanda "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan" mövzusunda işlənmiş şal da tamaşaçıların marağına səbəb olub. Tələbələrin bugünkü festivala marağı çox böyükdür. Burada müxtəlif əl işləri nümayiş etdirilir. Əl işlərini toxuyanların da hamısı Naxçıvan Dövlət Universitetinin tələbələridir.

"Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyəti 45 çeşiddə əl işi ilə çıxış edirdi. Ağac üzərində bədii oyma, daşduz və keramika üzərində oyma, dekorativ əl işləri, xalçaçılıq, bədii tikmə nümunələri festivalda maraqla qarşılandı. Dekorativ əl işlərinə aid 500-dən çox əl işi, corab, çarıq və digər əşyalar, bədii tikmə sənətinə aid 60-dan çox uşaq, qadın, kişi milli geyimləri festivalda diqqəti cəlb edirdi.

Naxçıvan şəhəri və Şərur rayonuna məxsus 15 çeşid və 170-dən çox baş geyimi, Culfa rayonundan gətirilmiş 30-dan artıq dekorativ-tətbiqi sənət, bədii tikmə, toxuma üzərində milli geyimlərin əks olunduğu nümunələr festivalda maraqla qarşılanmışdır.

Festivala gələn qonaqlar "Bazar" kompozisiyasında dəmirçi, baqqal, papaqçı, zərgər, pinəçi dükanları ilə tanış olmuşlar. "Adət-ənənələr və milli geyimlər" kompozisiyasına baxan iştirakçılar evdar qadınların tikdiyi geyimlərin, baş geyimləri və aksesuarların sərgi-satışı, milli geyimlərə dair çap məhsulları sərgisində isə bununla bağlı kitab və dövri mətbuat materialları ilə tanış olurdular. Milli ornamentlər təsvir olunmuş suvenir və əl işlərinin sərgi-satışı, eləcə də xanlıqlar dövrünün saray geyimlərindən ibarət dəfilə nümayişi də tamaşaçılarda maraq yaradırdı.

Festivalda iştirak edən papaqçı İsmail Babayev bizimlə söhbətində bildirdi ki, uzun illərdir, papaqçılıqla məşğuldur və bu işə marağı böyükdür. Xalqımızın ta qədimdən kişilik rəmzi saydığı baş geyimi olan papaqlar bu gün də gənc nəsil tərəfindən maraqla qarşılanır. Sərgidə nümayiş olunan sultanlıq, xanlıq dövrlərinə aid baş geyimləri ilə yanaşı, sadə, gündəlik, çoban papaqları və araqçınlar da qonaqların marağına səbəb olur. Bura gələn hər kəs onları yaxından görmək istəyir. Hətta, demək olar ki, hər kəs – gənc də, yaşlı da bu papaqlardan birini geyib fotoşəkil çəkdirir.

Festivala gələnlər içərisində əcnəbilər də üstünlük təşkil edirdi. İştirakçılar arasında "Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı" beynəlxalq konfransında iştirak etmək üçün şəhərimizə gələn qardaş Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetinin müəllimi Hüseyn Yurttaş öz təəssüratlarını bizimlə belə bölüşdü: "Bu qədim türk elinə budəfəki gəlişim xüsusilə yaddaqalan oldu. Bu festivalın keçirilməsi milli mədəniyyətə hörmətin ən bariz nümunəsidir. "Milli geyimlər" festivalında iştirak etməyim məni çox sevindirdi. Burada çoxçeşidli milli geyimlərin nümayiş olunması diqqətimi çəkdi. Ən xoşuma gələn məqam isə Türk dünyasında önəmli baş geyimi olan papaqlar idi".

Digər Türkiyə vətəndaşı Seray Kaya festivala olan marağını belə ifadə etdi: "Bu gün təşkil olunan tədbir göstərdi ki, Naxçıvanın qədim mədəniyyət tarixi var. Burada sərgilənən milli geyimlər, əl işləri, rəsmlər mənim diqqətimi çəkdi. Milli geyimlərlə edilən rəqslərə isə heyran qaldım. Türk insanını belə həmrəy, birgə görmək məni çox sevindirdi, bir daha anladım ki, bu diyar vahid mədəniyyətin birləşdiyi, öz tarixini, adət-ənənələrini, milli dəyərlərini qoruyan, yaşadan insanlar məskənidir".

Koreya vətəndaşı Seo Jong isə qədim Azərbaycan filmlərində istifadə edilən milli geyimlərin diqqətini cəlb etdiyini söylədi. Bu festival göstərir ki, Naxçıvan mədəniyyəti çox qədimdən formalaşıb. İnsanların istifadə etdiyi əşyalar, xüsusilə də papaq, kəmər, ev-məişət əşyaları çox qədim və heyrətamizdir. Mən sevincliyəm ki, bu festivalda iştirak etdim, tarix və mədəniyyətinizlə daha yaxından tanış oldum.




Burada həmsöhbət olduğumuz İran İslam Respublikasından qonaq gələn Samaya İrani Naxçıvanın gözəlliklərinin onu heyran etdiyini dedi. Ailəsi ilə birlikdə festivala gələn həmsöhbətim tədbirin keçiriləcəyini internet vasitəsilə öyrəndiyini vurğuladı. İranlı turistlərin Naxçıvanda çoxluq təşkil etdiyini deyən müsahibim belə festivalların keçirilməsinin nəinki İranda, ondan kənarda da maraqla qarşılandığını, muxtar respublikaya marağın artmasında çox böyük rol oynadığını vurğuladı.

Milli geyimlərimizi tərənnüm edən festival yüksək bayram əhval-ruhiyyəsi ilə keçdi. Naxçıvan Dövlət Filarmoniyasının, Qədim Musiqi Alətləri Ansamblının ifasında xalq mahnıları, Naxçıvan Dövlət və Uşaq filarmoniyalarının rəqs qruplarının, Şərur Xalq Yallı Ansamblının və "Şərur qönçələri" ansambllarının ifasında milli rəqslər və yallılarımız təqdim olundu.

**"Şərq qapısı"**

## Xalq artistinin yubileyi qeyd edilib

***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin 60 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, qədim diyarımızda tanınmış sənət adamları daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sənət adamlarına, aktyorlara, rəssamlara, musiqiçilərə göstərdiyi diqqət və qayğı bunun bariz ifadəsidir. Məhz Ali Məclis Sədrinin göstərişinə əsasən onların yubileyləri yüksək səviyyədə qeyd edilir. Bu gün keçirilən yubiley də bu ənənələrin uğurlu davamıdır.

Diqqətə çatdırılıb ki, yubileyi qeyd edilən tanınmış aktyor Kamran Quliyev teatrda 80-ə yaxın dolğun obraz yaradıb. Bu obrazlar dərin psixoloji dünyası ilə seçilən xarakterlərdir. 1980-ci ildə teatrın baş rejissoru, Azərbaycan Respublikasının Əməkdar artisti Vəli Babayevin dəvəti ilə bu sənət ocağında fəaliyyətə başlayan sənətkar Naxçıvan teatrının səhnəsində müxtəlif taleli obrazlar canlandırıb. Aktyorun yaratdığı rəngarəng obraz və personajlar onu teatrsevərlərə sevdirib. Kamran Quliyev həm də gözəl rejissor və pedaqoq kimi tanınır.

Naxçıvan teatrının səhnəsində 44 səhnə əsərinə uğurlu rejissorluq edən Kamran Quliyev "İtilənən xəncərlər", "Əlincə qalası", "Səyavuş", "Şeyx Sənan", "Topal Teymur", "İblis", "Yarımçıq şəkil", "Pompeyin Qafqaza yürüşü", "Araz sahilində doğan Günəş", "Koroğlunun Çənlibelə qayıdışı", "Qurtuluş dastanı" və digər tamaşaların rejissoru olub.

Vurğulanıb ki, istedadlı aktyorun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1987-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1999-cu ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülüb. 2002, 2003 və 2009-cu illərdə Azərbaycan Respublikası Prezidentinin mükafatçısı olub, 2008-ci ildə "Tərəqqi" medalı ilə təltif edilib.

Nazir Xalq artisti Kamran Quliyevin keçdiyi həyat yolundan və səhnə fəaliyyətindən söhbət açaraq qeyd edib ki, o, 1958-ci il sentyabrın 9-da Babək rayonunun Zeynəddin kəndində anadan olub və ilk təhsilini bu kənddə alıb. Uşaqlıq illərindən teatr sənətinə olan vurğunluq bu gənci 1975-ci ildə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna gətirib. Böyük sənətkarlardan dərs alan Kamran Quliyev Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyətə başlayıb. Elə ilk illərdən rejissorların diqqətini səlis diksiyası və fitri istedadı ilə cəlb edən aktyor bir-birinin ardınca maraqlı səhnə obrazları yaradıb. Kamran Quliyev teatrda işlədiyi müddət ərzində bir çox uğurlara imza atıb.

Bildirilib ki, Xalq artisti Kamran Quliyev sənətə gəldiyi ilk gündən Naxçıvan televiziyası ilə sıx əməkdaşlıq edərək bir çox teletamaşalarda rol alıb, televiziya verilişlərində və bir sıra dövlət tədbirlərində yaxından iştirak edib.

Natəvan Qədimova yubilyarı təbrik edib, ona səhnə sənətimizin inkişafında və bundan sonrakı yaradıcılıq yolunda uğurlar arzulayıb.

Tədbirdə Xalq artistinin sənət dostları Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Şirzad Abutalıbov, Xalq artistləri Rövşən Hüseynov, Yasəmən Ramazanova, Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artisti Yusif Allahverdiyev və digərləri çıxış edərək yubilyara ürək sözlərini bildiriblər.

Sonda Xalq artisti Kamran Quliyev çıxış edərək yaradıcılığına yüksək qiymət verildiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını ifadə edib, səhnə sənətimizin inkişafı üçün bundan sonra da fədakarlıqla çalışacağını deyib.

## Milli Musiqi Günü ilə bağlı tədbirlərə start verilib



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Milli Musiqi Gününə həsr olunmuş tədbirlərin qrafikini təsdiq etmişdir. Bu qrafikə əsasən muxtar respublikanın paytaxtında və rayon mərkəzlərində, o cümlədən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində konsertlər təşkil olunacaqdır. Eyni zamanda dahi bəstəkar Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən "Üzeyir ömrü" bədii filminin nümayiş olunması, musiqi tariximizlə bağlı mühazirələrin oxunması nəzərdə tutulub.

Sentyabrın 8-də Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin Qarabağlar Türbə Kompleksi qarşısında Milli Musiqi Gününə həsr olunmuş konserti ilə bu tədbirlərə start verilib.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il yanvarın 10-da imzaladığı Sərəncam ilə yaradılan bu musiqi kollektivi haqqında ətraflı məlumat verilib.

Konsertə Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin solisti, Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərovun, Tural Nəcəfovun ifa etdikləri mahnılar alqışlarla qarşılanıb. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Azər Cəfərli, Elçin Nağıyevin ifalarında Azərbaycan bəstəkarlarının populyar estrada mahnıları səsləndirilib.

Kollektivin tanınmış solistlərindən Azərbaycan Respublikasının Əməkdar artistləri Mübariz Əsgərov, Tural Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərli, Elçin Nağıyev və başqalarının ifasında estrada mahnıları ilə bərabər, Azərbaycan və dünya musiqisinin görkəmli sənətkarlarının marş, vals, caz, tanqo, rəqs musiqi janrında yazdığı melodiyalar da səsləndirilib.

Konsertə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Məmmədov və Elvin Əliyarov dirijorluq edib.

Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin iki saata yaxın davam edən konserti Kəngərli rayon və ətraf kəndlərin sakinlərinə xoş ovqat bəxş edib.

Dünən Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının Milli Musiqi Günü ilə bağlı Naxçıvan şəhərinin Saat meydanında da konserti olub.

**Əli RZAYEV**

## Əmək qanunvericiliyi ilə bağlı maarifləndirici seminar

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək münasibətlərinin rəsmiləşdirilməsi və əməyin mühafizəsi qaydalarına riayət olunmasına dair maarifləndirici seminarlar davam etdirilir. Növbəti seminar Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyində keçirilib.*



Agentliyin tabeliyində olan müəssisələrin kadr işləri, eyni zamanda əməyin mühafizəsi üzrə mütəxəssislərinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə müəssisənin aparıcı mühəndisi Həmid Fərhadov açıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəis müavini Azər Qasımov və xidmətin baş məsləhətçisi Hüseyn Hacıyev "İş sahələrində əməyin mühafizəsinin təşkili" və "Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi"nin tətbiqi mövzularında çıxış ediblər. Bəhs olunan mövzular haqqında slaydlar vasitəsilə məlumat verilib.

Sonra seminar iştirakçılarının mövzu ətrafında, həmçinin əmək qanunvericiliyinə dair sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyə və tapşırıqlarına əsasən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkilatçılığı ilə məşqçi və idmançılar üçün cüdo üzrə seminar və təlim-məşq toplanışı keçirilib.***

## Cüdo üzrə seminar keçirilib



Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində keçirilən seminara muxtar respublikanın perspektivli cüdoçuları və məşqçi-müəllimlər qatılıblar. Bakı şəhərindən dəvət olunmuş Azərbaycan Cüdo Federasiyasının regionlarda cüdonun inkişafı sektorunun müdiri, ikiqat Avropa çempionu Tərlan Poladov və Veteranlar Komitəsinin üzvü Vüsal Cəfərov cüdoçuların təlim-məşq prosesində iştirak ediblər. Məşqçilər yeniyetmə cüdoçulara yeni qaydalarla bağlı nəzəri və praktik məlumat veriblər.

Seminar barədə fikirlərini bildirən Tərlan Poladov qeyd edib ki, əsas məqsəd Azərbaycanda cüdonun inkişafına nail olmaqdır. Bunun üçün ölkə bu idman növünün təbliği istiqamətində işlər görülür. Bu gün Naxçıvanda cüdonun inkişafı, gənclər arasında sevilməsi və insanlarda bu növə marağın artırılması üçün hər bir şərait yaradılıb. Biz məşqçilər də mütəmadi olaraq nazirlik və federasiyanın dəvəti ilə muxtar respublikaya gəlir, məşqçi-müəllimlər və idmançılar üçün seminarlar, təlim-məşq toplanışları təşkil edirik. Eyni zamanda yeni qaydalar barəsində də onları məlumatlandırırıq. Bu gün keçirilən seminarda 80-dən çox idmançı iştirak edirdi. Biz Naxçıvana hər dəfə gəlib idmançı sayını çox gördükcə qürurlanırıq. Çünki muxtar respublikada bu növə maraq çoxdur. Naxçıvan cüdoçuları ölkədaxili və beynəlxalq arenalarda qazandıqları uğurlarla cüdonun muxtar respublikada inkişafının daim diqqətdə saxlanıldığını əyani olaraq göstərirlər.

Qeyd edək ki, təlim-məşq toplanışı beş gün davam edəcək. Məşqçilər Naxçıvan şəhəri ilə yanaşı, Şərur və Culfa rayonlarında da məşqçi-müəllimlər və idmançılar üçün seminar keçəcəklər.

**✍ Ceyhun MƏMMƏDOV**

## Meyvələr dadlı olduğu qədər də faydalıdır

*Sağlam yaşamaq, orqanizmin fəaliyyətini təmin etmək hər bir insanın istəyidir. Bu sağlamlığı yaratmaq üçün, ilk növbədə, faydalı qidalar qəbul etməliyik. Bunlardan başlıcası meyvələrdir.*



Hazırda mövsümə uyğun meyvə çeşidləri bolluq təşkil edir. Bəs bu meyvələrin faydalarını bilirikmi? Meyvələrin faydaları ilə bağlı araşdırmalar apardıq və çox maraqlı fikirlərə rast gəldik.

İlk olaraq meyvələrin şahı almadan başlayaq. Almanın çoxsaylı faydaları barədə məşhur insanlar da öz fikirlərini bildiriblər. Onlardan biri də Məhəmməd Hüseyn xan olub. O, XVIII əsrdə alma barəsində yazırdı ki, yetişmiş, ətirli və ləzzətli almalar daha faydalıdır. Mütəmadi olaraq bu meyvədən yemək ürək üçün, hətta taxikardiyada və çətin nəfəsalmada çox xeyirlidir. İştahasız insanlarda bu meyvə bir növ xilasedicidir. Çünki iştahanı artırır. Eyni zamanda həzm prosesini yaxşılaşdırır, qaraciyərə xeyirlidir. Əhval-ruhiyyənin artmasında, xroniki əsəb xəstəliklərində müsbət təsir göstərir və insanı gümrahlaşdırır. Alma beyin fəaliyyətini, onun iş qabiliyyətini də artırır. Almanı bişirib yeməyin də bir başqa faydası var. Belə ki, quru öskürək zamanı almanı bişirib yemək çox yaxşıdır. Onun tərkibi vitamin və minerallarla zəngindir. Tərkibində dəmir çox olduğundan qanazlığından əziyyət çəkən insanlara alma yeməyi məsləhət görürlər. O xolesterolu azaldır və revmatizmin müalicəsinə də kömək edir.

Öz ətri ilə hər kəsin sevdiyi meyvə olan armudun da faydalarından xeyli danışa bilərik. Armudun şirin növü susuzluğu yatırır və həzm prosesində əhəmiyyətlidir. Turş armud isə ödqovucudur və qızdırma zamanı xeyirlidir. Böyrəklərində problemi, yüksək təzyiqi olanlar üçün də çox faydalıdır.

Rəngarəng çeşidləri olan dadlı meyvələrdən biri də üzümdür. Üzüm qaraciyəri təmizləyir, qanazlığını tənzimləyir, həzm prosesini asanlaşdırır. Eyni zamanda qara üzüm qabığı və tumları ilə yeyilərsə, hüceyrələri yeniləyir. Ancaq üzümün kalorisi yüksək meyvə olduğunu da nəzərə almaq lazımdır.

Bu mövsümdə bol olan yemişin də insan orqanizminə xeyri çoxdur. O, bədənimizi çirkli qandan təmizləyir. Orqanizmimizi zərərli maddələrdən qoruma xüsusiyyəti var. Yuxusuzluq probleminin aradan qalxmasında da çox yaxşıdır. Amerika Xərçəng Tədqiqatı Birliyi öz hesabatlarında bir sıra ciddi xəstəliklərə qarşı bu meyvədən istifadə etməyi tövsiyə edir.

Dad-tamı ilə seçilən şaftalı ürək narahatlıqlarının və xərçəngin qarşısının alınmasında mühüm rol oynayır. Bu meyvə də həzmi asanlaşdırır, böyrəklərin və öd kisəsinin fəaliyyətinə müsbət təsir göstərir. Şaftalı böyrəkdə olan daşların parçalanmasına da kömək edir.

Sağlam həyat yaşamaq istəyiriksə, meyvələrdən yararlanaq.

**Telli MUSTAFAYEVA**

### İtmişdir

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndi, 7-ci küçə, 8/18-də yaşayan İsmayılov Fizuli Orucqulu oğlunun adına olan A-013200 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü və MH-0046788 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayon Qarabağlar kənd sakini Tağıyeva Xədicə Abdulla qızının adına olan JN-741[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və 875 inventar nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 646